Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 41-42 (8349) ◉ Çərşənbə axşamı, 15 noyabr 2016-cı il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

LƏNKƏRAN DÖVLƏT BAYRAĞI MEYDANINA YÜRÜŞ

Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da yüksək səviyyədə qeyd edilmişdir.

Noyabrın 9-da Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti və tələbə kollektivinin iştirakı ilə universitetin 4 saylı korpusundan başlayaraq "Dövlət Bayrağı" meydanına yürüş təşkil olunmuşdur. Tədbirdə universitetin rektor vəzifəsini icra edən professor Natiq İbrahimov, həmçinin Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşov və Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli iştirak edirdilər.

Bayraq meydanında tələbələr dövrə vuraraq əllərində Azərbaycanın üçrəngli bayrağını dalğalandırmış, "Bir kərə yüksələn bayraq bir daha enməz!", "Azərbaycan!", "Vətən!" şüarlarını səsləndirmiş, Vətənə, bayrağa bağlılıqlarını nümayiş etdirmiş və xatirə şəkilləri çəkdirmişlər.

Tədbir iştirakçıları yenidən universitetin 4 saylı korpusuna qayıtmış, professor Natiq İbrahimov tədbir iştirakçıları qarşısında çıxış edərək bayram münasibəti ilə hamını təbrik etmişdir.

Sonda tədbir musiqili proqramla davam etmişdir.

"BAYRAĞIMIZ QÜRUR MƏNBƏYİMİZDİR"

Noyabrın 8-də Heydər Əliyev Mərkəzində Dövlət Bayrağı Gününə həsr edilmiş "Bayrağımız qürur mənbəyimizdir" adlı disput-müzakirə keçirilmişdir.

Tədbirə Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə start verilmişdir.

Azərbaycan bayrağının müasir dövlətçiliyimizdə oynadığı rolu əks etdirən videoçarx iştirakçılar tərəfindən maraqla izlənilmişdir.

Rayon ziyalılarının və tələbə-gənclərin qatıldığı tədbiri Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova açaraq iştirakçıları Bayraq Günü münasibətilə təbrik etmiş, dövlətçiliyimizin bu milli atributunun yaranma tarixini Azərbaycan tarixinin şanlı səhifəsi adlandırmışdır.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdir müavini Güloğlan Bağırov bayrağın yaranma tarixindən, Azərbaycan dövlətçiliyi tarixində oynadığı əhəmiyyətli roldan ətraflı bəhs etmişdir.

Tədbirdə çıxış edən digər iştirakçılar da milli atributlarımızdan, onların cəmiyyət tarixinə təsirindən, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində oynaya biləcəyi əhəmiyyətli roldan danışmışlar.

"Ölkəmizi tanıyaq": Tur-aksiya iştirakçıları cənub bölgəsində

Səh. 2

Səh. 4

Lənkəran düyüsünün əvvəlki şöhrətini qaytarmaq üçün...

Lənkəran Dövlət Humanitar Kollecində

Səh. 5

Səh. 6

Azərbaycan multikulturalizmi ABŞ mətbuatında

VI zona çempionatı başa çatdı

Səh. 7

FÖVQƏLADƏ HALLAR NAZİRİ LƏNKƏRANDA CƏNUB BÖLGƏSİNİN VƏTƏNDAŞLARINI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov oktyabrın 28-də Lənkəran şəhərində cənub bölgəsinin sakinlərini qəbul edib.

Qəbuldan əvvəl nazir K.Heydərov və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Nazirliyin müvafiq icra strukturu rəhbərlərinin iştirak etdiyi qəbulda Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının sakinlərinin, habelə həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin müraciətlərinə baxılıb.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb.

Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin isə qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq struktur rəhbərlərinə tapşırıqlar verilib.

Bölgə vətəndaşlarının bir qismi, həmçinin, Nazirliyin müvafiq qurumlarının rəhbərləri tərəfindən qəbul olunub.

Fövqəladə Hallar Nazirliyinin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Qəbula gələn rayonların sakinləri nazirlə birbaşa görüş üçün yaradılmış şəraitdən məmnun qaldıqlarını söyləyib və bölgələrdə bu cür qəbulların təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

TƏBRİK EDİRİK

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 noyabr 2016-cı il tarixli Sərəncamı ilə respublikada kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup mütəxəssis müxtəlif orden və medallarla təltif edilmişdir. Onların arasında Lənkəran Zona Baytarlıq laboratoriyasının direktoru İktidar Yadulla oğlu Teymurov da vardır. O, "Tərəqqi" medalına layiq görülmüşdür.

İ.Teymurov rayonumuzun Xolmili kəndində anadan olmuşdur. 1971-ci ildə Xolmili kənd tam orta məktəbini, 1977-ci ildə keçmiş S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsini bitirmişdir. Həmin ildən baytar həkimi kimi müxtəlif vəzifələrdə işləmişdir. 1 may 1996-cı il tarixdən Lənkəran Zona Baytarlıq laboratoriyasının direktorudur.

YAP-ın üzvüdür.

Ailəlidir, 3 övladı, 2 nəvəsi var.

LƏNKƏRAN RAYONUNUN MƏKTƏBLİLƏRİ GƏNCƏ ŞƏHƏRİ, ŞƏMKİR VƏ GÖYGÖL RAYONLARI İLƏ YAXINDAN TANIŞ OLACAQLAR

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində noyabrın 12-dən 15-dək davam edəcək tur-aksiyanın Lənkəran rayonundan olan iştirakçıları – ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri noyabrın 12-də səhər saatlarında ölkənin Qərb bölgəsinə yola düşüblər.

Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə tur-aksiya iştirakçılarının yolasalma mərasimində Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının I müavini İlqar Dadaşov, İcra başçısının müavini Rasilə Əliyeva, şöbə müdiri Əlimərdan Əliyev, İcra aparatının əməkdaşları, təhsil işçiləri və valideynlər iştirak ediblər.

Məktəblilər və müəllimlər dörd gün ərzində Gəncə şəhərində Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərdi Qəssab türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Amfiteatr, Nizami Gəncəvi adına mərkəz və Gəncə Avtomobil Zavoduna, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, "İstiqlal" parkı və "Nəfis çörək zavodu"na, Göygöl rayonunda Alman kirxası, sonuncu alman Viktor Klaynın ev-muzeyinə baxış keçirəcək, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiya edəcəklər.

Yolasalma mərasimində çıxış edən şəhər İcra hakimiyyətinin və təhsil şöbəsinin məsul işçiləri, valideynlər dövlətimizin başçısının tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə 2014-cü il avqustun 1-dən şəhər və rayon icra hakimiyyətləri tərəfindən 9-11-ci sinif şagirdləri üçün təşkil edilmiş "Ölkəmizi tanıyaq" devizi altında maarifləndirici tur-aksiyaların əhəmiyyətini yüksək dəyərləndirərək məktəblilərə Azərbaycanın bölgələrinin tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış olmaq imkanı yaratdığına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

"ÖLKƏMİZİ TANIYAQ": TUR-AKSİYA İŞTİRAKÇILARI CƏNUB BÖLGƏSİNDƏ

"Ölkəmizi tanıyaq" layihəsinin altıncı mərhələsi çərçivəsində təşkil edilmiş tur-aksiyanın iştirakçıları - Gəncə, Şəmkir, Samux, Gədəbəy, Qazax, Ağstafa, Daşkəsən, Kəlbəcər, həmçinin Bakı şəhərinin Nəsimi, Yasamal və Binəqədi rayonlarının məktəbliləri və onların müəllimləri noyabrın 12-də axşam saatlarında Lənkərana gəliblər.

Aksiya iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyət nümayəndələri qarşılayıblar.

Lənkəran şəhərindəki Heydər Əliyev Xatirə Parkında məktəblilər qarşısında çıxış edən şəhər İcra hakimiyyəti başçısının müavini Rasilə Əliyeva "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunmuş tur-aksiyaların əhəmiyyətindən danışıb, cənub bölgəsinə səyahət edən məktəblilərə xoş arzularını çatdırıb.

Tur-aksiyanın iştirakçıları Lənkərandakı "Qafqaz Sahil", "Lux" hotellərində, "Palıdlı Sahil" və "Palmalife" istirahət mərkəzlərində, "Şah sarayı"nda yerləşdiriliblər.

Şam yeməyindən sonra onlar müxtəlif əyləncəli oyunlarda iştirak ediblər.

Məktəblilər noyabrın 13-14-də Lənkəran rayonunun tarix və mədəniyyət abidələri, muzeyləri, turizm infrastrukturu və sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmuş, şəhərin müxtəlif yerlərində ağacəkmə aksiyasında iştirak etmişlər.

2016-CI İLİN YANVAR-SENTYABR AYLARINDA LƏNKƏRAN RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARI

Sənaye

Sənaye sahəsində fəaliyyət göstərən fiziki şəxslərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla 2016-cı ilin yanvar-sentyabr aylarında rayon sənayesində 24607,9 min manatlıq və ya ötən ilin müvafiq dövrünün səviyyəsindən 58,7 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın ümumi həcmində məhsul istehsalının payı 76,8 faiz, xidmətlərin payı isə 23,2 faiz təşkil etmişdir.

Sənaye məhsullarının (işlərin, xidmətlərin) həcmi emal sənayesində 92,6 faiz artmış, elektrik enerjisi, qaz və buxar bölüşdürülməsi sektorunda 2,9 faiz azalmışdır.

Sənayenin qeyri-dövlət sektorunda istehsalın həcmi 91,9 faiz artmış və sənaye məhsulunun ümumi həcmində onun xüsusi çəkisi 76,8 faiz təşkil etmişdir.

Sənaye müəssisələri tərəfindən istehlakçılara 24014,4 min manatlıq və ya bütün sənaye istehsalının 97,6 faizi qədər məhsul göndərilmişdir. Oktyabr ayının 1-nə sənaye müəssisələrinin anbarlarında 1522,5 min manatlıq və ya iyul ayının 1-i vəziyyəti ilə müqayisədə 508,4 min manat az hazır məhsul ehtiyatı olmuşdur.

Lənkəran rayonunun sənayesinin əsas hissəsini qida məhsulları istehsalı təşkil edir. Sənayenin bu sahəsi tərəfindən 18614,4 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da bütün emal sənayesi məhsulunun 98,8 faizini təşkil etmişdir. Yeyinti sənayesi məhsulu istehsalı keçən ilin müvafiq dövrünə nisbətən 93,2 faiz artmışdır.

Yanvar-sentyabr aylarında sənaye müəssisələrində faktiki işləyənlərin orta siyahı sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz artaraq 1625 nəfər təşkil etmişdir. Çalışan muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 332,3 manat olmuş və əvvəlki ilin yanvar-sentyabr ayına nisbətən 4,7 faiz azalmışdır.

Əsaslı tikinti

Rayonun iqtisadi və sosial inkişafında mühüm əhəmiyyət kəsb edən tikinti kompleksinin dinamik inkişafı yeni istehsal və sosial obyektlərin tikilib işə salınmasını təmin edir.

Hesabat ilinin əvvəlindən ötən dövr ərzində bütün maliyyə mənbələri hesabına rayon iqtisadiyyatının inkişafına müəssisə və təşkilatlar tərəfindən 80617,5 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 50,5 faiz çox əsas kapitala investisiya yönəldilmişdir. Ümumi investisiyadan tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 50,9 faiz artaraq 77702,0 min manat olmuşdur.

Yanvar-sentyabr aylarında əhalinin şəxsi vəsaiti hesabına rayonda ümumi sahəsi 33976,0 kvadrat metr olan (əvvəlki ilin müvafiq dövründəkindən 29,2 faiz az) 281 ədəd yeni yaşayış evləri inşa edilmişdir. Rayon sakinləri özlərinin mənzil şəraitini yaxşılaşdırmaq məqsədilə yaşayış tikintisinə 12504,5 min manat vəsait xərcləmişlər.

Tikinti müəssisələri tərəfindən yanvar-sentyabr ayları ərzində yerinə yetirilmiş tikinti işlərinin həcmi əvvəlki ilin müvafiq dövründəkindən 45,6 faiz azalaraq 9414,0 min manat olmuşdur. Yerinə yetirilmiş tikinti işlərinin 2957,2 min manatını (31,4 faizini) tikinti və yenidənqurma işləri, 3806,2 min manatını (40,4 faizini) əsaslı təmir, 2680,6 min manatını (28,2 faizini) cari təmir işləri təşkil edir. Dövlət mülkiyyətində olan tikinti müəssisələrinin yerinə yetirdikləri işlərin dəyəri 3837,2 min manat (40,8 faiz), qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələrinin yerinə yetirdikləri işlərin dəyəri 5576,8 min manat (59,2 faiz) olmuşdur.

2016-cı il oktyabrın 1-nə fəaliyyət göstərən tikinti müəssisələrində işləyənlərin orta siyahı sayı 480 nəfər olmuş, hər bir işçinin orta aylıq nominal əmək haqqı 234,0 manat təşkil etmişdir. Orta aylıq əmək haqqı keçən ilin müvafiq dövrünə nisbətən 0,8 faiz azalmışdır.

Kənd təsərrüfatı

Rayonda dənli və dənli paxlalıların ümumi yığımı başa çatmışdır. Oktyabrın 1-i vəziyyətinə dən üçün qarğıdalı da daxil olmaqla 1344 hektar taxıl sahəsi biçilib döyülmüş və həmin sahələrdən ilkin çəkidə 2472 ton taxıl mədaxil edilmişdir. Dənli və dənli paxlalılar üzrə hər hektardan orta hesabla 18,4 sentner məhsul götürülmüşdür ki, bu da keçən ilə nisbətən 2,8 sentner azdır.

Dənli bitkilərin tərkibində buğda aparıcı yer tutmuşdur. 2016-cı ilin 9 ayında istehsal edilmiş taxılın 842 tonunu və ya 34,1 faizini məhz payızlıq buğda təşkil etmişdir. Hər hektarın məhsuldarlığı 19,0 sentner olmaqla ötən ilin müvafiq dövründəkindən 4,0 sentner azdır.

Kənd əməkçiləri yenə də tərəvəz istehsalına üstünlük vermişlər. Cari ilin doqquz ayında 4879 hektarda əkilmiş (ümumi əkin sahəsinin 59,9 faizi) tərəvəz sahəsindən 105028 ton məhsul toplanmışdır. Tərəvəzin məhsuldarlığı 215,3 sentner olmuşdur.

Cari təsərrüfat ilində 2411 ton kartof, ton bostan məhsulları, 302 ton yaşıl çay yarpağı, 7311 ton meyvə istehsal edilmişdir.

Heyvandarlıq məhsulları istehsalı sahəsində dinamik inkişaf davam etməkdədir. Cari ilin 9 ayı ərzində bütün təsərrüfatlar üzrə diri çəkidə 4518 ton ət, 24388 ton süd və 12252 min ədəd yumurta istehsal edilmiş və keçən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı 1,2 faiz, yumurta istehsalı 0,4 faiz artmışdır.

Oktyabrın 1-i vəziyyətinə əvvəlki ilin eyni hesabat tarixi ilə müqayisədə rayon üzrə qaramalın sayı 163 baş və ya 0,3 faiz artmışdır.

Hesabat ilinin 9 ayında keçən ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatının ümumi məhsulunun həcmi 9,8 faiz azalmış, o cümlədən bitkiçilik məhsulları 11,7 faiz azalmış, heyvandarlıq məhsulları 1,8 faiz artmışdır.

İstehlak bazarı

2016-cı ilin yanvar-sentyabr aylarında rayonun istehlak bazarında əhaliyə 348843,9 min manatlıq və ya 1,9 faiz çox istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsinin həcmi 1,8 faiz, iaşə dövriyyəsinin həcmi 1,5 faiz, pullu xidmətlər 2,3 faiz artmışdır.

Əmtəə və xidmətlər bazarında özəl sektorun dinamik inkişafı davam etməkdədir. 2016-cı ilin doqquz ayında özəl müəssisələr tərəfindən əhaliyə satılan istehlak mallarının və pullu xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünün səviyyəsini 1,8 faiz üstələyərək 335879,9 min manat təşkil etmişdir.

Ticarətdə aparılan inhisarsızlaşma prosesi nəticəsində sahibkarlığın mövqeyi daha da möhkəmlənmiş, fəaliyyəti genişlənmişdir. Fiziki şəxslər tərəfindən aparılan ticarət müəssisə təşkilatlara nisbətən daha dinamik və sürətlə inkişaf edir. Pərakəndə ticarət dövriyyəsinin 21,1 faizi bazar və yarmarkalarda fiziki şəxslərin apardığı ticarətin, 66,1 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin payına düşmüşdür.

Mütəşəkkil ticarətin strukturunda da nəzərə çarparaq dəyişikliklər baş vermiş, belə ki, dövlət ticarəti müəssisələri tədricən yeni yaranmış özəl müəssisələrlə əvəz olunmuşdur. 2016-cı ilin doqquz ayı ərzində pərakəndə ticarət dövriyyəsinin 12,8 faizi hüquqi şəxslərin payına düşmüş, əvvəlki ilin müvafiq dövrünə nisbətən bu müəssisələr üzrə satışın real həcmi 48,9 faiz artmışdır.

Cari ilin əvvəlindən ticarətdən rayonun hər sakini orta hesabla 1283 manatlıq, o cümlədən hüquqi şəxslərdən 164 manatlıq, fiziki şəxslərdən 1119 manatlıq istehlak malları almışdır. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ticarətdən alınan əmtəənin adambaşına həcmi 166 manat çox olmuşdur. Əhalinin həyat səviyyəsinin yüksəlməsi, alıcılıq qabiliyyətinin artması pərakəndə əmtəə dövriyyəsinin strukturuna da müsbət təsirini göstərmiş, əmtəə dövriyyəsində əhalinin rifahını səciyyələndirən keyfiyyət göstəricilərindən biri sayılan qeyri-ərzaq mallarının xüsusi çəkisinin getdikcə artması müşahidə olunmuşdur.

2016-cı ilin yanvar sentyabr aylarında əhaliyə 180489,9 min manatlıq ərzaq, 106538,4 min manatlıq qeyri-ərzaq malları satılmış, onların real həcmi ərzaq malları üzrə 3,7 faiz artmış, qeyri-ərzaq malları üzrə 0,1 faiz azalmışdır.

Pərakəndə şəbəkənin əmtəə dövriyyəsində qeyri-dövlət müəssisələri 99,9 faiz, dövlət müəssisələri 0,1 faiz təşkil etmişdir.

2016-cı ilin doqquz ayı ərzində əhaliyə 4930,4 min manatlıq və ya əvvəlki ilin eyni dövrünün səviyyəsindən 3,1 faiz çox iaşə xidməti göstərilmişdir. Rayonun iaşə dövriyyəsi əsasən özəl sektorun hesabına formalaşmışdır. İaşə dövriyyəsinin 2,6 faizi hüquqi şəxs statuslu müəssisələrin, 97,4 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların iaşə fəaliyyəti sayəsində formalaşmışdır. Hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 59,4 faiz azalaraq 127,4 min manat olmuşdur.

2016-cı ilin yanvar-sentyabrında əhaliyə 56885,2 min manatlıq və ya əvvəlki ilin eyni dövrünün səviyyəsindən 2,3 faiz çox pullu xidmət göstərilmişdir. Artımın demək olar ki, üçdə iki hissəsindən çoxu (77,9 faizi) fiziki şəxslər tərəfindən təmin olunmuşdur.

Cari ilin doqquz ayında əhaliyə göstərilmiş xidmətlərin 20,3 faizi dövlət müəssisələrinin payına düşmüşdür. Əhaliyə qeyri-dövlət müəssisələri tərəfindən 45359,6 min manatlıq və ya əvvəlki ilin doqquz ayı ilə müqayisədə 4,1 faiz çox pullu xidmət göstərilmişdir.

Nəqliyyat və rabitə

Rayonun avtomobil nəqliyyatı sektorunda fəaliyyət göstərən nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən cari ilin yanvar-sentyabr aylarında 1742 min ton və ya 2015-ci ilin müvafiq dövrünə nisbətən 4,2 faiz çox yük daşınmışdır. Bu dövrdə yük dövriyyəsi 3,9 faiz artaraq 337,2 milyon ton-km təşkil etmişdir.

Sərnişin daşınması ötən ilin yanvar-sentyabr aylarına nisbətən 4,5 faiz artaraq 22742 min nəfər olmuşdur, sərnişin dövriyyəsi isə 267,8 milyon sərnişin km olmaqla 4,1 faiz artmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışının həcmi 7950,3 min manat olmuş və 2015-ci ilin doqquz ayı ilə müqayisədə 1,7 faiz artmışdır. Məhsul buraxılışında yük daşınmasından əldə olunan gəlirlər 2697,5 min manat (ümumi gəlirin 34,4 faizi), sərnişin daşınmasından əldə olunan gəlirlər 5252,8 min manat (ümumi gəlirin 65,6 faizi) olmuşdur.

Fiziki şəxslər üzrə məhsul buraxılışın həcmi 1,9 faiz artmış və 6574,9 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışında onun xüsusi çəkisi 82,7 faiz olmuşdur.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, əhaliyə faktiki qiymətlərlə 1760,0 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz çox xidmət göstərilmişdir. Rabitə xidmətlərinin 80,9 faizi bilavasitə əhaliyə göstərilmişdir.

01 oktyabr 2016-cı il tarixə mənzillərdə olan telefon aparatlarının sayı 30659-u keçmişdir. Bu gün hər yüz ailədən 68-i telefon rabitəsi ilə təmin olunmuşdur.

2016-cı ilin doqquz ayında rayonun poçt və rabitə müəssisələrində 350 nəfər çalışmış və onların orta aylıq nominal əmək haqqı 314 manat olmaqla, 2015-ci ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artmışdır.

Əmək bazarı

Əhalinin həyat səviyyəsinə digər amillərlə yanaşı, məşğulluğun dəyişməsi və onun əmək bazarına təsiri mühüm rol oynayır. 2016-cı ilin oktyabr ayının əvvəlinə işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhalinin sayı rayon üzrə 110,4 min nəfər olmuş və əhalinin 49,2 faizini təşkil etmişdir.

Məşğul əhalinin 22,9 min nəfəri, yaxud 21,8 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin 2,6 min nəfəri və ya 11,4 faizi maddi istehsal sahəsində, 20,3 min nəfəri və ya 88,6 faizi isə xidmət sahəsində çalışanlar olmuşdur.

2016-cı ilin doqquz ayında iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin 2,9 faizi kənd təsərrüfatında, 6,9 faizi sənayedə, 1,6 faizi tikintidə, 25,5 faizi topdan və pərakəndə ticarətdə, 3,0 faizi nəqliyyat və rabitədə, 0,6 faizi yaşayışın təşkili və iaşədə, 1,9 faizi maliyyə və sığorta fəaliyyətində, 6,3 faizi dövlət idarəetməsində, 32,1 faizi təhsildə, 10,2 faizi səhiyyədə, 9,0 faizi isə kommunal və sosial xidmətlərdə olmuşdur.

Məşğulluq xidmətləri tərəfindən rayon üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 2016-cı ilin oktyabr ayının əvvəlinə 301 nəfər təşkil etmişdir. İşsizlik müavinəti alanların sayı 185 nəfər olmuşdur.

Əhalinin həyat səviyyəsinin yüksəlməsini səciyyələndirən orta aylıq nominal əmək haqqı 260 manat təşkil etmiş və əvvəlki illə müqayisədə 1,1 faiz az olmuşdur.

Ən yüksək orta aylıq nominal əmək haqqı maliyyə və sığorta fəaliyyətində, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsində, dövlət idarəetməsində olmuşdur.

Demoqrafik vəziyyət

İlkin hesablamalara görə 2016-cı ilin oktyabr ayının 1-i vəziyyətinə rayon əhalisinin sayı 224574 nəfər olmuş və cari ilin doqquz ayı ərzində 1486 nəfər və yaxud 0,7 faiz artmışdır. Əhalinin ümumi sayından 39,2 faizi şəhər, 60,8 faizi isə kənd sakinləridir. Dördüncü rübün əvvəlinə əhalinin 112,5 min nəfəri (50,1 faizi) kişi və 112,1 min nəfəri (49,9 faizi) qadındır.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində rayonda 2478 diri doğum və 1000 ölüm halları qeydə alınmışdır.

Ötən ilin müvafiq dövrü ilə müqa-yisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə doğulanların sayı 16,7-dən 14,9-a qədər, ölənlərin sayı isə 6,4-dən 6,1-ə qədər azalmışdır.

Cari ilin doqquz ayı ərzində rayonda 947 nikah və 159 boşanma qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayının 6,6-dan 5,6-ya qədər azalması, boşananların sayının isə 0,8-dən 0,9-a qədər artması deməkdir.

2016-cı ilin doqquz ayında rayonda pasport bölməsi tərəfindən 176 nəfər gələn və 168 nəfər gedən qeydə alınmışdır. Miqrasiya saldosu müsbət 8 nəfər olmuşdur.

Lənkəran Rayon Statistika İdarəsi

LƏNKƏRAN DÜYÜSÜNÜN ƏVVƏLKİ ŞÖHRƏTİNİ QAYTARMAQ ÜÇÜN...

ÇƏLTİKÇİLİK İNKİŞAF ETDİRİLİR

(Reportaj)

Qızıl payız yağışlı, küləkli gəlsə də tarlada zəhmət təri axıdanlar öz işində, gücündədir. Məhz belə bir gündə yolumuzu Türkəkəran kəndinə saldıq. Bu kəndin əhalisi istər sovet dönəmində, istərsə də müstəqilliyimizin ilk illərində çəltikçiliyə meyl edərdi. Elə indinin özündə də belədir. Həmsöhbətim fermer təsərrüfatının başçısı Ş.Abdullayevdir:

– 20 hektarda çəltik əkmişik, – deyə sözünə davam edir. – Əkini vaxtında, həm də aqrotexniki qaydalar əsasında keçirdik. Nəzərdə tutulduğundan daha bol və keyfiyyətli məhsul gözləyirik. Yetişdirdiyimiz məhsulu tez bir zamanda biçməyə hazırlaşırdıq ki, fasiləsiz yağışlar başladı. Kombaynın sahəyə girməsi və biçinə başlaması heç cür mümkün deyildi. Sağ olsun kənd camaatı. Ağsaqqallar da köməyimizə çatdılar. Tez bir zamanda əl ilə biçinə başladıq. Yaxın 2-3 günə biçini qurtararıq.

Müsahibim sözünə davam edərək bildirdi ki, insanların fədakar əməyi bizi sevindirir. Hər hektardan ən azı 20-25 sentner keyfiyyətli çəltik əldə etməyə imkanımız var.

Biz Ş.Abdullayevin çəltik sahəsində olarkən Lənkəran Kənd Təsərrüfatı İdarəsinin aparıcı mütəxəssisi İlqar Həsənovla görüşdük. Hal-əhval tutduqdan sonra rayonun digər kəndlərindəki çəltik sahələrinin vəziyyəti ilə maraqlandıq. O dedi:

– Vəziyyət qənaətbəxşdir. Narahatçılığa heç bir əsas yoxdur. 308,7 hektarda çəltik əkini vaxtında keçirilib. İndi hər bir fermer bol məhsul uğrunda mübarizə aparır. Baxın, adamlar necə də fədakarlıqla biçin aparırlar. Min zəhmət hesabına yetişdirilmiş məhsulun bir kiloqramının da zay olmasına imkan vermərik. Artıq başqa kəndlərdə kombaynlar vasitəsilə əkinə başlanılıb. Bu il iqlimimizə uyğun çəltik sortlarını çətinliklə əldə edə bildik. Haşimi, sədri, akulə, əmbərbu... çəltik sortları rayonumuzun yaşlı nəslinə çox doğmadır. Bir vaxtlar sadaladığım düyü növləri süfrələrimizin bəzəyinə çevrilmişdi. Dövlətimiz fermerlərə hər cür yardım göstərir. Məhz bu dəstəklə Lənkəran düyüsünün əvvəlki şöhrətini özünə qaytarmaq üçün hər birimiz əlimizdən gələni edirik. Hər şeydən öncə, ölkə Prezidenti möhtərəm İlham Əliyevin göstərişinə uyğun olaraq çəltikçilik sahəsində də dinamik inkişaf diqqəti cəlb edir. Əgər 2015-ci ildə rayon ərazisində 101 hektar sahədə çəltik əkini keçirilmiş, nəticədə 343 ton məhsul istehsal edilmişdisə, cari təsərrüfat ilində ayrı-ayrı fermer və sahibkarlar tərəfindən 308,7 hektar sahədə çəltik əkini vaxtında başa çatdırılmışdır. Apardığımız hesablamalara görə artıq 278,7 hektar sahədə biçin başa çatdırılmış və 696 ton çəltik məhsulu istehsal edilmişdir. Havaların fasiləsiz yağışlı keçməsi 30 hektar çəltik sahəsinin biçilməsini xeyli geçikdirmiş, bu da sonda məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, növbəti təsərrüfat ilində çəltik sahələrinin əvvəlki ilə nisbətən 2 dəfə artırılması nəzərdə tutulmuşdur. Ölkə başçısının aqrar sektorun dinamik inkişaf strategiyası bu gün təkcə çətlikçilikdə deyil, bütün sahələrdə öz müsbət həllini tapmaqdadır.

Bəli, mütəxəssisin fikrinə biz də qoşuluruq. Artıq möhkəm bünövrə yaradılıb. Ən əsası insanların bu sahədə fəallıq göstərməsi ürəkaçandır.

Türkəkəran kəndində olduğu kimi, rayonun Girdəni, Siyavar, Havzava, Mamusta, Ürgə, Xolmili... kəndlərində də çəltik sahələri xeyli genişləndirilib. İnamla demək olar ki, çəltikçilik rayonun aqrar sektorunda önəmli yerlərdən birini tutmaqdadır. Görülən və görüləcək işlər lap yaxın gələcəkdə rayonumuzun düyüyə olan tələbatını daxili imkanlar hesabına ödəyəcəkdir. Onda hər bir lənkəranlının süfrəsini xaricdən gətirilən məhsul deyil, bərəkətli torpağımızın düyüsündən hazırlanmış dadlı və ləzzətli plov bəzəyəcək. Buna hamımız inanırıq. Qoy yerli məhsulumuz bol və bərəkətli olsun.

ÇAY PLANTASİYALARI GENİŞLƏNDİRİLİR

Rayonumuzun kənd əməkçisi yetişdirdiyi ətirli və pürrəngi çayı ilə həmişə fəxr edib. Ucu-bucağı görünməyən "yaşıl qızıl" plantasiyaları bizim diyarın şanı və şöhrəti olub. Çox təəssüf ki, ötən əsrin 90-cı illərinin acı nəticələri çay plantasiyalarından da yan keçmədi. Belə bir uzunömürlü bitkini ağına-bozuna baxmadan yandırıb külə döndərdilər. Yaşadığımız cəmiyyətdə səriştəsiz insanların günahından belə proseslər baş verdi. Ən əsası insanlarımız bu mühüm sahənin sürətli inkişafına hazırda daha çox maraq göstərirlər. Xüsusilə möhtərəm Prezidentimiz İlham Əliyevin aqrar sektorun dinamik inkişafına böyük önəm verməsi tarla əməkçilərini yeni-yeni qələbələrə səfərbər edir.

İndi rayonumuzun hər yerində yeni plantasiyalar salınır. Hamı başa düşür ki, Lənkəran çayı daha çox dadlı və ətirlidir. Tam əminliklə deyə bilərik ki, lap yaxın gələcəkdə pürrəng çayımızla əhalimizi təmin etməklə yanaşı, nadir və qiymətli məhsulumuzu xarici bazarlara da çıxarmağa imkanımız olacaq. Faktlar və rəqəmlər çaybecərənlərimizin fərəhli işindən xəbər verir.

Hazırda rayonumuzun ərazisində 473,12 hektar çay plantasiyası vardır ki, bunun da 373,12 hektarı yeni salınmış çay sahələridir. Təsərrüfat ili hələ sona çatmayıb. İndiyə kimi çay sahələrindən 302 ton keyfiyyətli fleş yığılaraq fabriklərə göndərilib ki, bu da keçən illə müqayisədə 201 ton çoxdur.

Aqrar sektorun dinamik inkişafı rayonumuzun çayçılıq təsərrüfatında çox mühüm rol oynayır.

Lənkəran təbiəti hər şeyə qadirdir. Bu torpaq faraş tərəvəz, yaşıl çay, paxlalı və dənli bitkilər, müxtəlif növ meyvələr, habelə bütün sitrus bitkiləri daha çox məhsul və bar verir. Son illərdə meyvəçilik və sitrusçuluğun inkişafına diqqət artırılır. Rayonumuzda 2547 hektar çoxillik əkmələr vardır ki, bunun da 1781 hektarı meyvə, 200 hektarı üzüm və digər çoxillik əkmələr təşkil edir.

MEYVƏÇİLİK VƏ SİTRUSÇULUĞA DİQQƏT ARTIRILIR

1781 hektar meyvə bağının 487 hektarı subtropik, 680 hektarı sitrus, 599 hektarı isə qarışıq meyvə bağları təşkil edir. Cari təsərrüfat ilində 9018 ton meyvə, 388,5 ton üzüm məhsulu istehsal edilmişdir. Sitrus bağlarında limon, naringi, feyxoa yığımı davam edir.

Ayrı-ayrı fermerlər daha böyük nailiyyətlər əldə etməyə səy göstərirlər. Xanbulanda fermer Tərlan Səfərovun 17 hektar sitrus bağı var. İndiyə kimi bağlardan nəzərdə tutulduğundan iki dəfə çox məhsul yığılmışdır. Fermer Sərxan Əhmədovun işi də ürəkaçandır.

İndi hamı çalışır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin aqrar sektorun dinamik strategiya xəttinə öz zəhməti ilə cavab versin. Məhz buna görə də hər bir kənd əməkçisi yüksək əhval-ruhiyyə ilə çalışır.

Səhifəni hazırladı: **Barat Kərimov**

Lənkəran Dövlət Humanitar Kollecində

DÖVLƏT BAYRAĞI GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ TƏDBİR

Noyabrın 8-də Lənkəran Dövlət Humanitar Kollecinin akt zalında Dövlət Bayrağı Günü münasibətilə təntənəli tədbir keçirildi.

Tədbiri kollecin direktoru Ruslan Həmidov açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra Dövlət Bayrağı təntənəli şəkildə zala gətirildi.

Direktor giriş nitqində kollecin əməkdaşlarını və tələbələri Dövlət Bayrağı Günü münasibətilə təbrik edərək bildirdi ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan dövlətinin suverenlik rəmzidir. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2009-cu ilin noyabr ayında imzaladığı Sərəncama əsasən hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Kollecin İqtisadiyyat və idarəetmə fənn birləşmə komissiyasının sədri Qətilə Şükürova qürur mənbəyimiz olan Dövlət Bayrağı haqqında ətraflı məruzə etdi.

Pedaqogika və psixologiya fənn birləşmə komissiyasının sədri Nahidə Cəfərova, müəllim Ruhəngiz Məhərrəmova, kollec Tələbə-Gənclər Təşkilatının sədr müavini Xəyalə Əlizadə və I kurs tələbəsi Sumarə Bağırzadə ürək sözlərini söylədilər.

Çıxışlardan sonra Dövlət Bayrağı ilə bağlı video film nümayiş etdirildi.

Tədbir tələbələr Fəridə Fərəcova, Nərmin Məmmədzadə və Ləman Seyfullazadənin Dövlət Bayrağı haqqında söylədikləri şeirlərlə başa çatdı.

"POLİS-VƏTƏNDAŞ MÜNASİBƏTLƏRİNƏ GƏNC BAXIŞ"

Noyabrın 10-da Lənkəran Dövlət Humanitar Kollecində Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin əməkdaşları ilə "Polis-vətəndaş münasibətlərinə gənc baxış" layihəsi üzrə görüş keçirildi.

Görüş Vətən uğrunda canından keçmiş şəhid övladların xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlandı.

Tədbirdə Lənkəran ŞRPŞ-nin İctimai təhlükəsizlik bölməsinin inspektoru, polis baş leytenantı Pərviz Şükürov, İstintaq bölməsinin müstəntiqləri, polis kapitanı Toğrul Hüseynov, polis baş leytenantı Fazil Bağırov, Təhqiqat bölməsinin təhqiqatçısı, polis leytenantı Ayxan Ağalı, "Şəfəq Ekoturizm" Qeyri-Hökumət Təşkilatının sədri Vamiq Babayev, "Maarifpərvərlik" ictimai yardım assosiasiyasının sədri Afiq Məlikov iştirak edirdilər.

Kollecin direktoru Ruslan Həmidov layihə barədə ətraflı məlumat verdikdən sonra nəzərdə tutulmuş mövzularda video-sorğu nümayiş etdirildi.

Sonra layihədə nəzərdə tutulan mövzular çərçivəsində müzakirələr başlandı. Tələbə və müəllimləri maraqlandıran suallar cavablandırıldı.

Tədbirin sonunda Azərbaycan polisinin fəaliyyətinə həsr olunmuş qısa musiqili video-çarx nümayiş olundu.

Cəmil QULİYEV,
kollecin tarix müəllimi,
tarix üzrə fəlsəfə doktoru.

Müstəqil Azərbaycan - 25

Xalqımız özünün tarixi nailiyyəti olan dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü təntənə ilə qeyd edir. Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də Azərbaycan 2-ci dəfə öz dövlət müstəqilliyini əldə etmişdir. Əlbəttə, bu tarixi nailiyyət xalqın çoxdankı arzusu idi. Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olunandan sonra bu arzu reallaşdı. Ümummilli Liderimiz Heydər Əliyev o vaxt deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədi və dönməzdir". Ulu Öndərin uzaqgörənliklə dediyi bu sözlər öz həyati gücünü göstərdi. İndi doğma Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderin siyasi kursunu ləyaqətlə davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz inkişaf edir, öz tərəqqi və yüksəliş dövrünü yaşayır.

SAHİBKARLIĞIN İNKİŞAFI YENİ UĞURLARA YOL AÇIR

Təbii ki, müstəqilliyin qazanılması xalqımız üçün heç də asan başa gəlmədi. Əsrlər boyu ölkəmizə yağlı tikə kimi baxan yadellilər dəfələrlə respublikamızın ərazi bütövlüyünü pozmuş və xalqımızı haqsız müharibələrə çəkmişlər. 25 ildən çox davam edən Dağlıq Qarabağ problemi hələ də öz həllini tapmayıb. Torpaqlarımızın 20 faizi işğal edilib. Bir milyondan çox soydaşımız öz dədə-baba yurdlarından didərgin düşüb. Möhtərəm Prezidentimiz İlham Əliyevin dəfələrlə dediyi kimi, Azərbaycan torpağında heç vaxt 2-ci erməni dövləti yaradıla bilməz. Lakin torpaqlarımızı geri qaytarmağa qadir yenilməz Azərbaycan ordusu vardır. Xalqımız səfərbərdir və hər an Ali Baş Komandanın döyüş əmrini gözləyir.

Bütün bunlara baxmayaraq, yuxarıda qeyd etdiyim kimi, ölkəmizdə əmin-amanlıq hökm sürür, bütün sahələrdə sıçrayışlı inkişaf nəzərə çarpır. Bölgələrdə tikinti-abadlıq işləri geniş vüsət alır.

Sözümün canı budur ki, ildən-ilə inkişaf edən respublikamız məhz 25 il əvvəl yenidən qovuşduğu dövlət müstəqilliyinin yetirməsidir. Təbii ki, müstəqilliyimizin bəhrələrindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. İndi iş adamları üçün öz imkanlarını ortaya qoymaq, yeni iş yerləri açmaq üçün hər cür şərait yaradılıb. Qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ciddi tapşırığı ilə sahibkarlığın inkişafı yolunda hər cür maneələr, əngəllər aradan qaldırılıb. Təbii ki, bu, daha böyük uğurlardan, inkişafdan, tərəqqidən xəbər verir.

Məlum olduğu kimi, ölkəmizdə kənd təsərrüfatı məhsulları bolluğu yaratmaq üçün indiki şəraitdə fermer təsərrüfatları mühüm rol oynayır. Mən uzun illər kənd təsərrüfatı ilə məşğul olmuşam. Hələ bələdiyyə sədri işləyəndə kənddə heyvandarlığa xüsusi önəm vermişəm.

İndi müstəqil şəkildə heyvandarlıqla əlaqədar fermer təsərrüfatı yaratmışam. Təsərrüfatımızda hazırda 120 baş qoyun, 50 başa yaxın inək vardır. Heyvanlar üçün tövlə kimi hələ Sovxoz texnikumun vaxtından qalan bina uyğunlaşdırılıb. Eyni zamanda, otlaq sahəsi ayrılıb. Heyvanların yemlənməsi, saxlanması və s. tədbirlər zootexniki qaydada həyata keçirilir.

Heyvandarlıq kənd təsərrüfatında çətin sahə olsa da, onu inkişaf etdirməyi və heyvandarlıq məhsulları bolluğunu yaratmağı qarşıma məqsəd qoymuşam. Artıq ilk uğurlara imza atmışam. Təsərrüfata təcrübəli heyvandarları cəlb etmişəm.

Fermer təsərrüfatını daha da genişləndirmək niyyətindəyəm. İnanıram ki, başladığım işin böyük gələcəyi var.

Beynəlxalq aləmdə böyük hörmət və nüfuz sahibi olan respublikamız müstəqillik yollarında inamla addımlayır. Bir sahibkar kimi qürur duyuram ki, ölkəmizin tərəqqisində, yeni iş yerlərinin açılmasında az da olsa mənim də əməyim var.

Elyar CƏFƏROV,
Şilavar kəndində heyvandarlıq üzrə fermer təsərrüfatının rəhbəri

2016-cı il "Multikulturalizm ili"dir

AZƏRBAYCAN MULTİKULTURALİZMİ ABŞ MƏTBUATINDA

Bugünlərdə ABŞ-ın "Eurasia review - təhlil və xəbərlər jurnalı"nda və "Foreign policy news" xəbər saytında amerikalı siyasi analitik və araşdırmaçı jurnalist, "Azərbaycanın Gənc Dostları Klubu" İctimai Birliyinin İdarə Heyətinin fəxri üzvü Peter Teysin Azərbaycanın multikulturalizm modeli haqqında məqaləsi dərc olunub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yazının tam mətninin tərcüməsini oxuculara təqdim edir.

Yadigar MƏMMƏDLİ,
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi

MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

2016-cı ilin iyul ayında, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil olunan yay məktəbində mühazirə ilə çıxış etmək üçün Azərbaycandan dəvət aldım. Mühazirəmin mövzusunu ABŞ və Paraqvayın mədəni müxtəlifliyi mövzusuna həsr eləmişdim. Mövzu Avropa və Asiyanın 15 ölkəsindən gələn gənc tələbələrin böyük marağına səbəb oldu.

Daha sonra bu gənc tələbələrin təşəbbüsü ilə beynəlxalq multikulturalizm yay məktəbi çərçivəsində, "Azərbaycanın Gənc Dostları Klubu" İctimai Birliyi yaradıldı. Bu təşkilat hazırda Dimitrios Asproulis (Yunanıstan) və Salomeja Lukaitenin (Litva) həmsədrliyi və 100-dən çox üzvü ilə (Türkiyə, Almaniya, Çexiya, Polşa, İndoneziya, Gürcüstan, Qırğızıstan, İtaliya, İsveçrə, Azərbaycan, ABŞ, Misir, Yəmən) aktiv fəaliyyət göstərir. Bu iki gənc lider Azərbaycan cəmiyyətində multikulturalizmin rolunun, eyni zamanda, başqa mədəniyyətlər tərəfindən öyrənilməsinin və örnək kimi seçilməsinin təbliği istiqamətində beynəlxalq konfranslar keçirməyi planlaşdırırlar. Dimitrios və Salomeja öz ölkələrində sülhün və dayanıqlığın təşviq olunmasına dair müxtəlif tədbirlər təşkil edirlər. Təbii ki, bütün bunlar akademik Kamal Abdulla və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə səyi nəticəsində ərsəyə gəlib.

Prezident cənab İlham Əliyevin Azərbaycanın multikulturalizm siyasətinin dünyaya nümunə olaraq təklif olunması ideyası hazırda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdulla tərəfindən uğurla həyata keçirilir.

Akademik Kamal Abdulla tanınmış Azərbaycan yazıçısı və alimidir. Onun linqvistika, mədəniyyətşünaslıq və mifologiya üzrə yazıları, eləcə də esse, roman və hekayələri bir çox dünya dillərinə tərcümə olunub və geniş oxucu kütləsi toplayıb. Bundan əlavə, Dövlət müşaviri Kamal Abdulla 14 il ərzində Bakı Slavyan Universitetinin rektoru olaraq çalışıb.

Onun rəhbərliyi dövründə Azərbaycanın ali təhsil müəssisəsi böyük yüksəliş dövrünü yaşayıb.

Kamal Abdullanın rəhbərliyi altında Bakı Slavyan Universiteti Azərbaycan və dünya üçün fəxr edilə biləcək uğurlara imza atıb. Bu işlərə rus, Azərbaycan, ingilis, fransız, alman ədəbiyyatı üzrə filologiya fakultəsinin, rus dili və ədəbiyyatının orta və ali təhsil müəssisələri üçün pedaqoji fakültənin, Azərbaycan, Rusiya, Polşa, Ukrayna, Bolqarıstan, Çex Respublikası, Türkiyə, Yunanıstan üzrə ekspertlərin iştirakı ilə Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin müxtəlif dillər üzrə tərcümə fakültəsinin (Rus-Azərbaycan, İngilis, polyak, Ukrayna, İngilis-Bolqar, Çex, İngilis-Yunan), eyni zamanda, fakültə və Universitet heyəti üçün yeni pedaqoji fəaliyyətin davamlı treninqlərinin yaradılmasını və uğurlu fəaliyyətinin təmin edilməsini nümunə kimi göstərə bilərik.

2000-ci ildə BSU-da Fəxri doktor adı yaradılıb. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Moskva və Ümumi Rusiyanın Patriarxı II Aleksi, Ukrayna Ali Radasının sədri İvan Plyuş, Rusiya Federasiyasi Federal Məclisi Federasiya Şurasinin sədri Sergey Mironov, Bolqarıstan Respublikasının Prezidenti Jelyu Jelev (1990-1997) və Bolqarıstan Respublikasının Prezidenti (2002-2012) Georgi Pırvanov, Yunanıstan Respublikasının Prezidenti (1995-2005) Konstantinos Stefanopulos, Ukrayna Respublikasının Prezidenti (2004-2010) Viktor Yuşşenko və Polşa Respublikasının Prezidenti (2005-2010) Lex Kaçinski BSU-nun fəxri doktorlarıdır.

Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin güclü dəstəyi ilə təmin edilmiş bütün bu nailiyyətlər akademik Kamal Abdullayevin uzaqgörən rəhbərliyi ilə həyata keçirilib.

Dünyada artan qlobal qeyri-sabitlik fonunda Azərbaycanda müxtəlif dinlərin və millətlərin birgə yaşaması əsasında qurulmuş multikulturalizm və tolerantlıq hər kəs üçün bir örnəkdir. Azərbaycan multikulturalizm ideyasını gələcəkdə bəşəriyyətin inkişafı üçün yeganə yol hesab edir. Çünki, hazırki qloballaşma, məlumat mübadiləsi və ümumi inteqrasiya proseslərinin özünü təcrid etmədə aktiv rol oynaması dəhşətli bir haldır.

Müasir dünyada ən önəmli məsələlərdən biri olan mədəniyyətlərarası dialoqu nəzərə alaraq, Azərbaycan 2011-ci ildən başlayaraq Bakıda iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edir.

Azərbaycanda 2016-cı ilin 25-27 aprel tarixlərində BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilib. BMT-nin tribunasından istifadə edərək, Azərbaycan bir daha öz multikulturalizm ənənələrini göstərib, dünya ölkələrini mədəniyyətlərarası tolerantlıq və sivilizasiyalararası dialoqa hörmət etməyə çağırıb. Bütün bunların davamı olaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yay-qış məktəbləri və "Azərbaycanın Gənc Dostları Klubu" vasitəsilə, mədəniyyətlərarası dialoqun, sülh və stabilliyin təmin olunmasına, eləcə də Azərbaycanın multikultural dəyərlərinin təşviqinə, gələcək dünya liderlərinin maarifləndirilməsi və millətlərarası əməkdaşlığın möhkəmləndirilməsinə davam edəcəkdir.

Peter TEYS,
Amerikalı siyasi analitik,
araşdırmaçı-jurnalist.

BAKI VII AZƏRBAYCAN-RUSİYA REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARI LƏNKƏRAN VƏ ASTARADA OLMUŞLAR

Bakı VII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçısı olan Rusiya Federasiyasının Həştərxan vilayətinin nümayəndə heyəti tanışlıq məqsədilə Lənkəran və Astarada səfərdə olmuşlar.

Lənkəran Turizm İnformasiya Mərkəzi qonaqlar üçün info-tur təşkil etmişdir. İnfo-tur çərçivəsində qonaqlar Lənkəranın tarix və mədəniyyət abidələri ilə tanış olmuş, turizm baxımından maraqlı olan məkanlara səyahət etmişlər. Eyni zamanda, qonaqlara Lənkəran mətbəxinin zəngin nümunələri təqdim olunmuşdur. Astara rayonunda isə forum iştirakçıları terminal vannalara, turizm məkanlarına baxmışlar.

Qonaqlara TİM tərəfindən hazırlanan Lənkəranın turizm potensialını təbliğ edən buklet, flayer, təqvimlər və videoçarx olan DVD disk təqdim edilmişdir.

Nümayəndə heyəti göstərilən qonaqpərvərliyə görə təşəkkür etmiş, geniş əməkdaşlıq qurulması üçün Rusiya Federasiyasının müvafiq qurumlarına müraciət edəcəklərini bildirmişlər.

İlqar ƏZİMOV,
Lənkəran Turizm
İnformasiya Mərkəzinin
direktoru

LƏNKƏRANDA SAHİBKARLIĞIN GÜZƏŞTLİ KREDİTLƏŞDİRİLMƏSİNƏ DAİR İŞGÜZAR FORUM

Noyabrın 3-də İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu (SKMF) Lənkəranda sahibkarlığın güzəştli kreditləşdirilməsinə dair işgüzar forum keçirib.

Forumda Lənkəran rayonunun iqtisadi potensialının reallaşdırılması istiqamətində müzakirələr aparılmış və prioritet hesab olunan ixtisaslaşdırılmış "yaşıl market"in, müasir suvarma sistemlərinin tətbiqi ilə tərəvəzçilik, çayçılıq və intensiv bağçılıq və cins heyvandarlıq təsərrüfatlarının yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib. Kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100 faizədək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanılıb.

SKMF-nin icraçı direktorunun müavini Arif Vəliməmmədov bildirib ki, indiyədək Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 3000-ə yaxın investisiya layihəsinin maliyyələşdirilməsinə 223,7 mln. manat güzəştli kredit verilib. Digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistik mərkəzlərin, quşçuluq fabriklərinin, cins iri buynuzlu heyvandarlıq kompleksinin, çörək zavodlarının, meyvətərəvəz, mebel və tikinti materiallarının istehsalı müəssisələrinin, iri fermer, istixana, çayçılıq, üzümçülük təsərrüfatlarının, yem zavodunun yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilib.

Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum çərçivəsində Lənkəran və ətraf rayonlarda fəaliyyət göstərən 47 sahibkara 491 min manat güzəştli kredit verilib. Verilən kreditlər heyvandarlıq, arıçılıq, bağçılıq, qapı-pəncərə istehsalı və s. sahələrin inkişafına yönəldiləcək və 60-a yaxın yeni iş yerinin açılmasına imkan verəcək.

Tədbir çərçivəsində həmçinin Lənkəran rayonunda güzəştli kredit ayrılmış bağçılıq təsərrüfatlarına baxış keçirilib. Ümumilikdə, son illər müasir texnologiyaların tətbiqi ilə 1856 ha ərazidə 22 bağçılıq və tingçilik təsərrüfatlarının maliyyələşdirilməsinə 27,5 mln. manat güzəştli kredit verilib.

Şahmat

VI ZONA ÇEMPİONATI BAŞA ÇATDI

Oktyabrın 24-dən 31-dək Lənkəran şəhərində Azərbaycan Respublikası Təhsil Nazirliyi "Təhsil" RİM-nin 2016-cı il tədbirlər proqramına uyğun olaraq Respublika UGŞM və UGİ-nin Şahmat bölmələri arasında VI zona üzrə Respublika çempionatı keçirildi. Çempionatda Bakı şəhər 3 nömrəli UGŞM, Astara, Masallı, Biləsuvar, Yardımlı, Neftçala, Salyan və Lənkəran rayonlarının şahmatçıları mübarizə apardılar.

Çempionat 2 mərhələdə - I zona mərhələsi, II final mərhələsində keçirildi.

Çempionatın açılış və bağlanış mərasimində Azərbaycan Respublikası Təhsil Nazirliyi "Təhsil" RİM-nin nümayəndəsi Fərid Məmmədov, Lənkəran Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Könül Manafova, Lənkəran şəhər Təhsil şöbəsinin müdir müavini Güloğlan Bağırov, Lənkəran şəhər Şahmat məktəbinin direktoru, Azərbaycan Respublikasının əməkdar məşqçisi, FİDE hakimi İdrak Dadaşov çıxış etdilər.

Yarışda Bakı, Lənkəran, Astara, Masallı, Biləsuvar, Salyan, Yardımlı və Neftçaladan 100-ə yaxın şahmatçı iştirak etdi. Yarış 6 yaş qrupunda keçirildi (7, 9, 11, 13, 15, 17 yaşlı oğlan və qız şahmatçılar).

Yarış FİDE qaydalarına uyğun olaraq "dairəvi" sistem üzrə keçirildi.

Zona yarışlarında I, II, III yeri tutmuş şahmatçılar noyabr ayında keçiriləcək final mərhələsinə vəsiqə əldə etdilər. Final mərhələsində I yeri tutan şahmatçı məktəblilərin Dünya çempionatında, II yeri tutan şahmatçı isə məktəblilərin Avropa çempionatında iştirak etmək hüququ qazandı.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışların qalibləri:

7 yaşadək -2010-cu il və daha kiçik (oğlanlar)
1. Məmmədli Elnar Eldar oğlu - Lənkəran
2. Abdullazadə Hüseyn Azər oğlu - Neftçala
3. Muradov Hüseyn Malik oğlu - Lənkəran

7 yaşadək -2010-cu il və daha kiçik (qızlar)
1.Məmmədli Nuray Eldar qızı - Lənkəran
2.İsmayılzadə Fatimə Ruslan qızı - Neftçala
3.Novruzlu Nazlı Rəşad qızı - Yardımlı

9 yaşadək -2008-2009-cu il təvəllüdlü (oğlanlar)
1.Mirzəli Ramazan Oruc oğlu - Bakı
2.Güləliyev Aqil Ramil oğlu - Salyan
3.Həsənov Rəsul Elşad oğlu - Lənkəran

9 yaşadək -2008-2009-cu il təvəllüdlü (qızlar)
1.İsmayılzadə Xədicə Ruslan qızı - Neftçala
2.Dədəyeva Güllü Şahin qızı - Astara
3.Baxışlı Əminə Şahin qızı - Lənkəran

11 yaşadək -2006-2007-ci il təvəllüdlü (oğlanlar)
1.Əkbərov Aydın Hüseyn oğlu - Lənkəran
2.Əliyev İslam Ədalət oğlu - Masallı
3.Nuriyev Böyükağa İlham oğlu - Neftçala

11 yaşadək -2006-2007-ci il təvəllüdlü (qızlar)
1.Ağayeva Gülsənəm Ramazan qızı - Lənkəran
2.Sadıqova Solmaz Elşən qızı - Neftçala
3. Dədəyeva Leyli Şahin qızı - Astara

13 yaşadək -2004-2005-ci il təvəllüdlü (oğlanlar)
1.Əhədzadə Hacıəli Niyazi oğlu - Lənkəran
2.Salamov Mətin Abdulla oğlu - Bakı
3.Talıbzadə Mirsəyidəli Araz oğlu - Masallı

13 yaşadək -2004-2005-ci il təvəllüdlü (qızlar)
1. Kərimova Kifayət Müşfiq qızı - Neftçala
2. Əliyarlı Zümrüd Sabir qızı - Biləsuvar
3. İbrahimzadə Əsmər Ramil qızı - Lənkəran

15 yaşadək -2002-2003-cü il təvəllüdlü (oğlanlar)
1. Vəliyev Tural Fərhad oğlu - Lənkəran
2.Dadaşov Dadaş İbrahim oğlu - Masallı
3. Mahmudov Vüsal Muxtar oğlu - Bakı

15 yaşadək -2002-2003-cü il təvəllüdlü (qızlar)
1. Heydərova Gülçin Emil qızı - Masallı
2. Allahverdiyeva Ayan Fuad qızı - Bakı
3. Mirizadə Arzu Zöhrab qızı - Lənkəran

17 yaşadək -2000-2001-ci il təvəllüdlü (oğlanlar)
1. Əhədzadə Kənan Rasim oğlu - Lənkəran
2. İsrafilov Emil Gündüz oğlu - Bakı
3. Əliyev Məmmədşah İlham oğlu - Astara

17 yaşadək -2000-2001-ci il təvəllüdlü (qızlar)
1. Mirzəzadə Nəzrin Vidadi qızı - Lənkəran
2. Səfərova Aytən Etibar qızı - Neftçala
3. Heydərova Həcər Emil qızı - Masallı

Qaliblərə Azərbaycan Təhsil Nazirliyi "Təhsil" RİM-nin diplomları verildi.

İdrak DADAŞOV,
Lənkəran şəhər Şahmat məktəbinin direktoru,
Respublikanın Əməkdar məşqçisi, FİDE hakimi

Nəcib ənənələr

ZƏHMƏTİNİZƏ GÖRƏ "ÇOX SAĞ OLUN!"

Ümumtəhsil məktəblərində şagirdlərin təlim-tərbiyəsi sahəsində müəllimlərlə yanaşı, kitabxanaçıların, laborantların, təsərrüfat işçilərinin və xadimələrin də əməyi az deyil. Bütün pedaqoji kollektivlərdə olduğu kimi, məktəbimizdə də belə kadrlar öhdələrinə düşən vəzifəni layiqincə yerinə yetirirlər. Onlar dərslərarası fasilələrdə şagirdlərlə daha çox təmasda olur, xüsusilə ibtidai siniflərdə oxuyan azyaşlıların qayğıları ilə maraqlanır, balacaları darıxmağa qoymur, ovundurmağa çalışırlar. Belələrinə Mehparə Haşımovanı, Xanım Nağıyevanı, Əfqanə Cəfərovanı, Hüriyyə Həsənovanı və başqalarını misal göstərmək olar. Şagirdlərimiz həmişə onların hörmətini saxlayır, eyni zamanda, dərsdən sonrakı vaxtlarda da ədəb-ərkanla görüşüb haləhval tuturlar.

Məktəbimizin texniki işçilərindən biri də Almas Heydərovadır. O, 1950-ci il noyabrın 17-də Viyən kəndində anadan olub. 1967-ci ildə Aşağı Nüvədi qəsəbə tam orta məktəbini bitirdikdən sonra Baloğlan Abbasov adına sovxozda tərəvəzçi kimi əmək fəaliyyətinə başlayıb. 1978-ci ildə Lənkəran şəhərində 6 aylıq makinaçılıq kursuna daxil olub. 1979-cu ildən bugünədək məktəbimizdə katibə vəzifəsində işləyir.

A.Heydərova artıq 37 ildir ki, sevdiyi, qəlbən bağlandığı işin öhdəsindən bacarıqla gəlir. Bu müddət ərzində məktəbin dəftərxana işlərini yüksək zövqlə, səliqə-sahmanla icra etməkdədir. Kollektivimizin sevimlisinə çevrilən, hamının hörmətini qazanan Almas xanımın əməyi şəhər Təhsil şöbəsi, o cümlədən məktəb rəhbərliyi tərəfindən dəfələrlə qiymətləndirilmiş, Fəxri fərmanlara, təşəkkürlərə və mükafatlara layiq görülmüşdür.

Bir neçə gündən sonra A.Heydərova pensiya yaşı ilə əlaqədar məktəbimizdən ayrılır. Kollektivimizdə qoyduğumuz nəcib ənənənin davamı olaraq ad günündə onunla vida görüşü təşkil edəcək, uzun illik səmərəli fəaliyyəti layiqincə qiymətləndiriləcək.

Məktəbin nüfuzunu həmişə, hər yerdə uca tutan, böyüklə böyük, kiçiklə kiçik, şagirdlərimizin qayğıkeşi, kəndimizin hörmətli, nüfuzlu xanımlarından olan Almas Heydərovanı ad günü münasibətilə bütün müəllim-şagird və texniki heyətimiz adından təbrik edir, ona uzun ömür, cansağlığı və xoşbəxtlik, mənalı istirahət arzulayır, kollektiv adından təşəkkür edirəm.

– Almas xanım, Sizin xətrinizi hamımız əziz tutur və zəhmətinizə görə "Çox sağ olun!" deyirik.

Fəxri HÜSEYNOV,
Viyən kənd tam orta məktəbinin direktoru

Maraq dünyası

ƏSAS MƏSƏLƏ YAŞAMAQ DEYİL, MƏHARƏT ODUR Kİ, 100 YAŞINDA DA SAĞLAM OLASAN

Sadalayacağımız məsləhətlərlə həm ömrünüzü uzada, həm də sağlam qala bilərsiniz.

Cəmiyyətlə yaxın olmaq

Özünü cəmiyyətdən təcrid etmək gündə 15 siqaret çəkmək qədər zərərlidir. Nə olursa-olsun, həftədə bir dəfə gəzməyə çıxın, dostlarınızla görüşün.

1 saat tez yatın

7 saatdan az yatmaq infarkt və iflic riskini 16 dəfə artırır. Bunun üçün də heç olmasa gecə 1 saat tez yatın və ömrünüzü uzadın.

Gülüş yaşadır

Ürəkdən gülmək immunitet sistemini gücləndirir, kalorilərin yanmasına kömək edir, ömrü uzadır. Gün ərzində orta hesabla 20 dəfə ürəkdən gülmək lazımdır.

Az yemək

Sağlam qalmaq üçün az yemək lazımdır. Yemək payını 20 faiz azaltsanız orqanizminiz güclənər. Az yemək tez qocalmağa mane olur.

MİKROBLARI, QURDLARI VƏ XƏRÇƏNG HÜCEYRƏLƏRİNİ ÖLDÜRƏN ƏDVİYYAT

Mixək çox güclü müalicəvi və profilaktik xüsusiyyətlərə malikdir. Elmdə çoxdan sübut olunub ki, mixək bir çox mikroblara, göbələklərə və qurdlara öldürücü təsir edir.

Bundan əlavə, mixək güclü xərçəngəleyhinə təsirə malikdir.

Mixək spazmları azaldır, yaraların sağalmasını tezləşdirir, köpdən azad edir, orqanizmi tonuslaşdırır, əhval-ruhiyyəni yaxşılaşdırır.

Güclü iltihabəleyhinə təsirə görə mixək orqanizmdə olan müxtəlif iltihablar zamanı müalicəvi vasitə kimi istifadə oluna bilər.

Mixək effektli profilaktik vasitədir. Soyuq fəsillərdə bu ədviyyatın köməyi ilə siz özünüzü bir çox soyuqdəymə xəstəliklərdən və iltihablardan qoruya bilərsiniz.

Mixəyin balla qarışığı uşaqlara qurdeleyhinə dərman kimi vermək çox yaxşıdır.

Çay dəmlədikdə çaydana 2-3 mixək atın. Mixəkli çay qrip və soyuqdəymə xəstəliklərinin qarşısını almağa kömək edəcək.

Ağız qoxusu, damaq problemləri, diş ağrısı zamanı mixəyi çeynəmək yaxşıdır. Mixək ağız boşluğunda mikrobları öldürür, nəfəsi təravətləndirir.

Toplayanı: **Pərvin HÜSEYNLİ**

LƏNKƏRANIN QIZIL PAYIZI

Əzəmətli Talış dağlarının ətəklərində, qocaman Xəzərin qızıl qumlu sahillərində yerləşən, "Cənub mirvarisi" adlandırılan Lənkərandan Tanrı heç nəyi əsirgəməyib. Bura gözəlliklər diyarıdır. Lənkəranı mayak-şəhər də adlandırırlar. Qonaqlar, yerli və xarici turistlər hər zaman bu şəhərin işığına həvəslə, dönə-dönə gəlirlər. Ona vurğun olanların sayı getdikcə çoxalır.

Bu əsrarəngiz məkanın hər fəsildə öz təkrarolunmaz gözəllikləri, özəllikləri var. "Mavi gözlü Xəzərin qoynunda nazənin gəlin" kimi Lənkəran hazırda qızıl payız günlərini yaşayır. Soyuqlar, yağışlı günlər bu yerlərə daha erkən gəlsə də, xəzan yeli yarpaqları vaxtından əvvəl töksə də, mənzərələr, həmişə olduğu kimi, yenə də könül, göz oxşayır. Lənkəran bu mövsümdə də al yanaqlı, əli xınalı gözələ bənzəyir. Aramsız yağışların suyu altında "çimən" ağaclardan tökülən yarpaqların xışıltısı sanki həzin melodiyanın sədalarını, bağ və parkların, xiyabanların yaşıllıqları rəssam tablosunun əlvan naxışlarını, çalarlarını xatırladır...

Foto-etüd Xalidindir.

ƏZİZ OXUCULAR!

2017-ci ilin I yarımilliyi üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir

ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 10 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

"Lənkəran" qəzeti

ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran şəhər 5 nömrəli tam orta məktəbinin pedaqoji kollektivi məktəbin müəllimi **Arzu Fətullayevaya** qardaşı

Mirhəsənin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Digah kənd tam orta məktəbinin pedaqoji kollektivi məktəbin müəllimi **Nuranə Cəfərovaya** qardaşı

Ceyhun Sadıqovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Digah kənd tam orta məktəbinin pedaqoji kollektivi məktəbin müəllimi **Vüsalə Abdullayevaya** atası

Şadət Babayevin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
İltifat ƏHMƏDOV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın Lənkəran şöbəsi
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Buraxılışa məsul
Barat Kərimov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 2550